**2024-cü il ərzində qaz qurğularının etibarlı istismarı sahəsində həyata keçirilmiş müayinə və texniki xidmət üzrə monitorinqlərin nəticələri barədə məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin əməkdaşları 2024-cü il ərzində qaz paylayıcısı olan "Azəriqaz" İstehsalat Birliyində, o cümlədən onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektlərinə baxış keçirilməsi üsulu ilə müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilmiş məlumatlar əsasında qaz qurğularının etibarlı istismarı sahəsi üzrə müayinə və texniki xidmətin həyata keçirilməsinə monitorinqlər keçirmişdir.

Monitorinqlər nəticəsində qaz paylayıcısı tərəfindən müayinə və texniki xidmət məlumatları üzrə reyestrin fasiləsiz fəaliyyətinin tam təmin edilmədiyi, informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların və proqram-texniki vasitələrin tətbiqinin həyata keçirilmədiyi, Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunmadığı, reyestrdə sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə edilmədiyi, məlumatların təyin edilmiş məsul şəxs (şəxslər) tərəfindən reyestrə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilmədiyi, həmçinin reyestrə nəzərdə tutulmuş subyektlərin çıxış imkanının təmin olunmadığı, reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşların gücləndirilmiş elektron imza ilə təmin edilmədiyi müəyyən olunmuşdur. Bununla yanaşı, monitorinqlər zamanı qaz paylayıcısı tərəfindən "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6-2-ci maddəsi ilə müəyyən edilmiş qaydada qaz paylayıcısı tərəfindən istehlakçının qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsinin təmin edilmədiyi, o cümlədən qaz paylayıcısı tərəfindən Qanunun 6-3-cü maddəsi ilə müəyyən edilmiş qaydada istehlakçının qaz qurğularına və qaz xətlərinə texniki xidmətin həyata keçirilmədiyi, qazpaylayıcı şəbəkəyə texniki xidmətin göstərilməsində qanunvericiliyin tələblərinin pozulduğu, müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin görülmədiyi, habelə Qanunun 6-2-ci və 6-3-cü maddələri ilə müəyyən edilmiş müddətlərə və hərəkətlərə əməl edilmədiyi müəyyən edilmişdir.

Monitorinqlər zamanı müəyyən olunmuş halların aradan qaldırılması məqsədilə Agentlik tərəfindən qaz paylayıcısına icrası məcburi göstərişlər verilmişdir.